# UNUDULMAZ JURNALİST

**Lerikin Zuvand mahalı Azərbaycana dövlət xadimləri, sərkərdələr, adlı-sanlı alimlər, çoxlu ziyalılar bəxş edib. Quliyevlər bu yurdun sayılan-seçilən, hörmətli tayfalarından biridir.**

**Bu nəslin adını, şərəfini ləyaqətlə yaşadanlardan biri də Araz Quliyev idi. İti qələmi, kəsərli sözü, yüksək mədəniyyəti, xeyirxah əməllərilə.**



Atası Hilal Quliyev Lerikin mərd kişilərindən, nüfuzlu ağsaqqallarından olub. Böyük Vətən Müharibəsində iştirak edib. Rayonda sovet, partiya işində, 23 il isə fasiləsiz rayon yol istismarı idarəsinin rəisi vəzifəsində işləyib. Ömür-gün yoldaşı Rahilə xanımla Araz, Qəhrəman, Elman, Solmaz, Sevda, Ləlxan adlı ləyaqətli, gözəl övladlar böyüdüb ərsəyə çatdırıblar.

Araz ixtisasca müəllim idi. Qonşu Kəlvəz kəndində, Lerik qəsəbəsində məktəbdə dərs deyir, ədəbi yaradıcılıqla da məşğul olur, qəzet və jurnallarda maraqlı, məzmunlu yazılarla çıxış edirdi.

1970-ci ilin sentyabr ayında "Bolluq uğrunda" (indiki "Lerik") qəzetində işə düzəldi. Zəhmətkeş insanlar, tikinti-abadlıq işləri, kəndin qayğı və problemləri haqqında qələmə aldığı yazılar diqqəti cəlb edirdi. Kəndləri qarış-qarış gəzərək əməkçilərlə iş başında görüşür, onların qayğı və problemlərini öyrənir, bütün bunları böyük məhəbbətlə oxuculara çatdırırdı.

O, redaksiyanın kənd təsərrüfatı şöbəsinə rəhbərlik edirdi. Redaksiyada çalışdığı illərdə rayon qəzeti respublikamızın hörmətli mətbu orqanlarından sayılırdı. "Bolluq uğrunda" qəzeti dəfələrlə müsabiqələrdə qalib olmuş, Respublika Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanına layiq görülmüşdür. Müxbirlərlə aparılan kütləvi işin təşkilinə görə keçmiş SSRİ Jurnalistlər İttifaqının Mariya Ulyanova adına I dərəcəli diplomu ilə təltif edilmişdir.

Araz Quliyev redaksiyada və yerli radio verilişlərində çalışan gənc əməkdaşlara məsləhətlər verir, zəngin təcrübəsini onlarla bölüşürdü. Gənc yazarların püxtələşməsində və neçə-neçə jurnalist nəslinin yetişməsində onun böyük əməyi vardır.

Araz müəllim sonralar Aqrar-Sənaye İşçiləri Həmkarlar İttifaqı Lerik rayon komitəsinin sədri seçildi. O, ömrünün axırına kimi bu vəzifədə işlədi, təkcə cənub bölgəsində deyil, respublikada hörmət, nüfuz qazandı.

Uzun illər "Bolluq uğrunda" qəzetinin baş redaktoru işləmiş, **Lerik Rayon Ağsaqqallar Şurasının sədri, respublikanın Əməkdar jurnalisti Həmzə Vəliməmmədov** həmkarını belə xatırlayır:

- Araz müəllimlə 17 il bir yerdə işləmişik. İstedadlı, zəhmətkeş jurnalist, həssas, səmimi, təvazökar insan idi. Rayonun təsərrüfat həyatına yaxından bələd idi. Zarisovka, reportaj, analitik və publisistik yazıları həyatı dolğun əks etdirir, oxucuların qəlbinə yol tapırdı. 2005-ci ildə vaxtsız ölüm onu bizdən tez ayırdı. Nəcib əməlləri, işıqlı arzuları bu gün də yaşayır, zəngin həyat yolu, təcrübəsi gənc müxbirlərə ən gözəl nümunədir.

Şair-publisist Ağacəfər Həsənli, Lerik Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Cəlil Baxşiyev, Rayon Polis Şöbəsinin istintaq qrupunun müstəntiqi, polis mayoru Altay Mirzəyev və onu tanıyan bir çoxları Araz müəllimlə müxtəlif məsələlərlə bağlı daim ünsiyyət saxladıqlarını, qələminə yaxından bələd olduqlarını vurğuladılar.

"Lerik" qəzetinin baş redaktoru, respublikanın əməkdar jurnalisti İdris Şükürlü, "Milli qürur" qəzetinin baş redaktoru Balaşirin Ağayev isə Araz müəllimin jurnalistlik fəaliyyətini belə dəyərləndirdilər:

- Araz Quliyev Lerikin mətbuat tarixində izi qalan şəxsiyyətdir. Gələcək nəsillər bu qədim yurd yerimiz barədə məlumat almaq üçün mütləq "Lerik" qəzetinə müraciət edəcək, Araz müəllimin yazılarından bəhrələnəcəklər.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**